# MÜƏLLİMİN ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN (I-XI SİNİFLƏR) ŞAGİRDLƏRİ ARASINDA MƏKTƏBDƏ VƏ MƏKTƏBDƏNXARİC APARDIĞI PEDAQOJİ METODİKİ İŞLƏRİN NƏTİCƏLƏRİ 3 CİLDDƏ



Əməkdar müəllim, Əmək Veteranı, pedaqogika üzrə elmlər doktoru, "Qızıl Qələm" laureatlı jurnalist-publisist Yusif Xıdır oğlu Qazıyevin uzun müddət orta məktəblərdə işlədiyi və apardıqları eksperiment və praktik işlərin nəticələrini əks etdirən əsər və məqalələr toplusu 3 cilddə işıq üzü görmüşdür.

Yeri gəlmişkən, qeyd etmək olar ki, Yusif müəllimin iş təcrübəsi və elmi fəaliyyəti zəngin və dəyərli motivlərlə oxucuya çatdırılır. Onun artıq indiyənə qədər pedaqogika elminə dair 5 monoqrafiyası ("Mütaliə pedaqogikası" (264 səhifə, Bakı) - 2002-ci il, "Məktəb kitabxanqası və mütaliə tariximizdən" (264 səhifə, Bakı) - 2003-cü il, "Mənəvi dəyərlərimizin keşiyində duraq" (388 səhifə) - 2007-ci il, "Azərbaycanda məktəb kitabxanalarının inkişaf yolu" (454 səhifə, Bakı) - 2014-cü il, "Kitabi-Dədə Qorqud" abidəsində təlim-tərbiyə məsələləri Azərbaycan milli dövlətçiliyinin, maarif və mədəniyyətinin təməl daşıdır) (312 səhifə, Bakı) - 2022-ci il) və 6 elmi-siyasi-publisist kitabları ("Kəndimizin 50 ili" 20 səhifə - İrəvan, 1970, "Eməni məsələsi. Yalanlar və gerçəklər", 344 səhifə - Bakı, 2011-ci il, "Heydər Əliyev ideyaları əbədiyaşardır", 464 səhifə, Bakı, 2013-cü il, "İrəvanı xanlığının Pəmbək mahalında Ardıç (Arçut) kəndi", 784 səhifə, Bakı, 2019-cu il, "Erməni riyakarlıqları sənədlərin işığında. Qısa ensiklopedik məlumatlar", 800 səhifə, Bakı, 2022), həmçinin 200-dən artıq Pedaqogika elminə və elmi-siyasi publisist məqalələri mərkəzi qəzet və jurnallarda çap edilmişdir.

Bunlarla yanaşı Yusif müəllimin elmi və pedaqoji və jurnalist fəaliyyəti haqqında iki kitab nəhr edilmişdir: "Şərəfli müəllim və alim ömrü", 488 səhifə - Bakı, 2019, "Daşlı cığırların carçısı", 118 səhifə, Bakı, 2018. O cümlədən Yusif müəllimin elmi və pedaqoji fəaliyyəti barədə mətbuatda böyük və kiçik həcmdə 90-a qədər yazılar verilmişdir ki, bu yazılar haqqında yazılan kitablarda əks olunmuşdur.

Yusif müəllimin bu göstəriciləri - elmi-pedaqoji, publisist yazıları əsl elm fədaisi olmaq nümunəsinin göstəricisidir. Xalq pedaqogikası nümunələrində deyildiyi kimi "Alim oldun yaz, nadan oldun döz". Bu mənada Azərbaycan məktəb və pedaqoji fikir tarixinin və xalq pedaqogikasının tarixi köklərini üzə çıxarılması pedaqogika elminin qarşısında prioritet vəzifələrdəndir. Bu vəzifə pedaqoq alim Əməkdar Müəllim, Əmək Veteranı, Qızıl Qələm laureatlı jurnalist-publisist Yusif Qazıyevin qarşısında əsas tədqiqat obyekti olmuş, onun elmi-pedaqoji fəaliyyətiin əsasını təşkil etmişdir.

Yusif müəllimin yaradıcılığının bir qismi yuxarıda adı çəkilən monoqrafiyalarda çap edilmişdirsə, onun digər pedaqoji əsər və məqalələri "Seçilmiq pedaqoji əsərləri" adı ilə müxtəlif təhsil məssisələrində fəaliyyətləri ilə əlaqədar olaraq müxtəif dövr və illər ürə 3 cilddə çap edilmişdir.

568 səhifədən ibarət olan birinci cild Yusif müəllimin elmi-pedaqoji fəaliyyətinin 1957-1988-ci illər dövrünü əhatə edir ki, cildin üzərində işlədiyi orta məktəbin fotosu və əlaqədar olduğu və elmi axtarışda rəhbərləndiyi müəssisə-




nin fotosu verilmişdir. Cildin əvvəlində və sonunda Yusif müəllimin həyat fəaliyyətinin bəzi məqamlarını göstərən fotohəkillər oxucunu özünə cəlb edr.




Cild ön söz, giriş, müxtəlif adlı əsər, mühazirə, referat, məqalə və çıxışlardan ibarətdir.

Ön sözdə Yusif müəllimin axtarışları və tədqiqat obyektləri haqqında müfəssəl məlumat verilir.

Girişdə Yusif müəllimin həyat fəaliyyəti haqqında geniş məlumatlar verilir və yaradıcılığının elmi axtarışının xülusəsi verilir. Burada 5 böyük başlıq altında yarım fəsillər verilmişdir. I Başlıq 12 yarım fəsildən ibarətdir, II başlıq müəllifin əmək fəaliyyəti haqqında məlumatlar verilir, III başlıq müəllifin pedaqoji və elmi fəaliyyətinin bəzi məqamları haqqında danışılır. IV başlıq "Yusif müəllimin ilk əmək cəbhəsində işlədiyi Ardıc (Arçut) kəndində nail olduğu müvəffəqiyyətlər, o cümlədən məktəbin rəhbər və qabaqcıl müəllifləri" adlanır. Burada 3 yarımfəsil vardır. V başlıq "Yusif müəllimin təmasda olduğu təhsil idarə və müəssisələri haqqında məlumatlar" adlanır. Burada 7 yarımfəsil vardır. Həmçinin redaktor və tərtibçi haqqında da məlumatlar verilir.

Bu cild də illər üzrə Arçut kənd orta məktəbində Yusif müəllimin elmi və pedaqoji fəaliyyətindən bəhs edilir.

MƏQALƏLƏR TOPLUSUNUN MƏZMUNUNU ƏHATƏ EDƏN BAŞLIQLAR:

I. Arçut orta məktəbi 1968-1970-ci illər. Burada "Məktəblilərin kolmmunist tərbiyəsinin formalaşmasında valideynlərin və sinif rəhbərinin rolu" mövzusunda mühazirələr məcmuəsindən danışılır.

Arçut orta məktəbi 24 yanvar 1969-cu il. Yusif müəllim V.İ.Lenin haqqında yazdığı referat "V.İ.Lenin və xarici dillər" müəllim və şagirdlərə oxunur. 3 yarım fəsildən ibarətdir.

II. Arçut orta məktəbi 1971-ci il. Yusif müəllim "Böyüməkdə olan nəslin ailədə düzlük və doğruçuluq tərbiyəsi" mövzusunda valideyn və şagirdlərə oxuduğu mühazirənin məzmunu verilmişdir.

III. Arçut orta məktəbi. 1971-1975-ci illər. Bu vaxt ərzində Yusif müəlliminin pedaqoji fəaliyyətinin məzmunu mühazirələr vasitəsi ilə həyata keçirilir ki, bu mühazirələr 7 yarım başlıqdan ibarətdir. Bu illər ərzində Yusif müəllim "Azərbaycanda məktəb kitabxanası işçinin inkişaf tarixi (ən qədim dövrlərdən 1920-ci ilə qədər) " tədqiqat işi başa çatmışdır. İş 3 fəsildən ibarətdir.

Qeyd edilən illərdə Yusif müəllimin 2 məqaləsi və yeni bir tədqiqat əsəri "Voenno-patrioticeskoe vospitanie uçahixsə v şkole" adlı əsəri rayon və respublika üzrə təşkil edilmiş pedaqoji konfranslarda oxunmuşdur. Əsər 3 fəsildən ibarətdir.

IV. 1976-1980-ci illər. Bu illər ərzində Yusif müəllim "Məktəb kitabxanasında şagird mütaliəsinin təşkil təcrübəsindən" adı əsəri rayon və respublika təşkil edilmiş pedaqoji konfranslarda oxunmuşdur.

Beləliklə, I cildə 4 əsərdən başqa bir




çolx mühazirə və məruzələr etmişdir. I cilddə cəmi 80 əsər, məqalə, referat və mühazirələr verilmişdir.

608 səhifədən ibarət olan ikinci cild Yusif müəllimin elmi-pedaqoji fəaliyyətinin 1989-2005-ci illər dövrünü əhatə edir. Cildin üzərində Bakının 276 saylı tam orta məktəbinin fotosu verilmişdir. Cildin əvvəlində və sonunda Yusif müəllimin 276 saylı məktəbində şagird və müəllimlərlə təmasda və ya işdə olduğu müxtəlif vaxtlarda çəkilmiş fotolar verilmişdir.

II cild Yusif müəllimin 1989-2005-ci illər ərzində elmi-pedaqoji fəaliyyəti ərzində çap edilmiş konfrans və yığıncaqlarda oxunmuş əsərlər, referatlar, mühazirələr və məqalələr toplusunu əhatə edir.

II cilddə ön söz, giriş və ilər üzrə çap edilmiş əsər, məqalə və referatların məcmuəsindən ibarətdir. İllər üzrə çap edilmiş məqalələrin, oxunmuş mühazirə və çıxışların sayını göstərmək olar.

1989-2005-ci illər ərzində çap edilmiş əsər və məqalələrin təsnifatı:

1989-1992-ci illərdə 7, 1993-cü ildə 15, 1994-cü ildə 4, 1994-cü ildə 2, 1996-cı ildə 4, 1998-ci ildə 3, 1999-cu ildə 19, 2001-ci ildə 5, 2002-ci ildə 10, 2003-cü ildə 8, 2004-cü ildə 13, 2005-ci ildə 7, cəmi 93 əsər və məqalələr çap edilmişdir.

532 səhifədən ibarət olan III cild Yusif müəllimin 2006-2016-cı illər ərzində çap edilmiş əsər və məqalələrini nümayiş etdirir. Yusif müəllimin bu yaradıcılıq illəri 3 hissəyə bölünür: I hissə 2006-2010-cu illərdir ki, bu illər Bakının 276 saylı məktəbində işlədiyi illərin davamıdır. II hissə 2011-2016-cı illərdir ki, Yusif müəllimin elmi-yaradıcılıq illəri hesab edilir ki, həmin illərdə doktorlunq dissertasiyasını başa çatdırmışdır. III hissə 2013-2021-ci illərdir. Burada Yusif müəllim həm Azərbaycan Dövlət Pedaqoji Universiteti, həm də Azərbaycan Milli Elmlər Akademiyasında elmi və pedaqoji fəaliyyət göstərmişdir. Qeyd edilən illər cildin üzündə foto altında vreilmişdir.

III cildin üzərində Yusif müəllimin təmasda olduğu elmi müəssisələrinin - ADPU və AMEA-nın fotoları, cildin iç üzünün əvvəlində və sonunda iş prosesini və təmasda olan adamlarla əlaqədə olduğunu ək etdirən fotoşəkillər verilmişdir.

III cild də Ön söz, Giriş və illər üzrə çap edilmiş əsər, məqalə və referatların siyahısı verilmişdir. Onları illər üzrə təfsilatını vermək məqsədə uybundur.

Ön söz, Giriş və illər üzr çap edilmiş əsər və məqalələr. Giriş V fəsli əhatə edir. I fəsil 12 yarım fəsil, II fəsil Yusif müəllimin əmək fəaliyyətinə dair qısa məlumat verilir. III fəsil Yusif müəllimin pedaqoji və elmi fəaliyyətinin bəzi məqamları qeyd edilir. IV fəsildə elmi tədqiqat fəaliyyətləri müxtəlif 3 yarım fəsildə verilmişdir. V fəsildə 7 yarım fəsildən ibarətdir ki, bunlar Yusif müəllimin təhsil aldığı, işlədiyi və tədqiqat işi ilə məşğul olduğu elmi müəssisələrin adlarını əhatə etməklə bərabər, onlar haqqında qısa məlumatlar verilir.

2006-2016-cı illərdə çap edilmiş əsərlə məqalələrin sayı.

2006-cı ildə 10, 2007-ci ildə 4, 2008-ci ildə 10, 2009-cu ildə 9, 2010-cu ildə 7, 2011-ci ildə 2, 2012-ci ildə 2, 2013-cü ildə 13, 2014-cü ildə 12, 2016-cı ildə 3, cəmi 77 əsər və məqalələr çap edilmişdir.

Beləliklə, Yusif müəllimin 5 monoqrafiyasından başqa 3 cilddə 250 əsər, məqalə və referatlar mövcuddur. Bu əsər məqalə və referatların əksəri mərkəzi qəzet və jurnallarda çap edilmiş, digərdəri elmi konfranslarda, digər təlim-tərbiyə məsələlərinə həsr edilmiş yığıncaqlarda şagird, tələbə, müəllim və valideynlərə oxunmuşdur.

***Kamal CAMALOV,***
***pedaqogika üzrə elmlər doktoru,***
***Əməkdar Müəllim, professor***